**Azərbaycan Respublikasının nəqliyyat-yol kompleksinə daxil olan sahələr üzrə 2008-ci ilin yanvar-dekabr ayları ərzində sosial -iqtisadi inkişafın nəticələri haqqında**

# M Ə L U M A T

***Ölkənin iqtisadi və sosial inkişafının makroiqtisadi göstəriciləri***

İqtisadi və sosial tərəqqinin əsas keyfiyyət göstəricisi olan Ümumi Daxili Məhsul 2008-ci ilin yanvar-dekabr aylarında ötən ilin mavafiq dövrü ilə müqayisədə 10,8 faiz, yaxud müqayisəli qiymətlərlə 3,7 milyard manat artaraq 38,0 milyard manata çatmışdır. Ümumi Daxili Məhsulun əhalinin hər nəfərinə düşən həcmi 4439,9 manat və ya 5403,9 ABŞ dolları təşkil etməklə 9,5 faiz artmışdır.

Ümumi daxili məhsulun formalaşmasında xüsusi rol oynayan sənaye sahəsində məhsul istehsalı keçən ilin yanvar-dekabr ayları ilə müqayisədə 6,0 faiz artmışdır.Sənaye məhsulunun 76,6 faizi və ya 21,4 milyard manatı mədənçıxartma bölməsində, 18,7 faizi və ya 4,8 milyard manat emal bölməsində istehsal olunmuşdur.

ÜDM-in 70,8 faizi iqtisadiyytın istehsal sahələrinin, 28,1 faizi xidmət sahələrinin payına düşmüşdür.

Bu dövrdə sənayedə 21818,9 milyon manatlıq, yaxud ÜDM-in 57,4 faizi qədər, kənd təsərrüfatı, ovçuluq və meşə təsərrüfatında 2213,8 milyon manatlıq (5,8 faiz), tikintidə 2881,9 milyon manatlıq (7,6 faiz), **nəqliyyatda 1942,8 milyon manatlıq (5,1 faiz)**, topdan və pərakəndə ticarət, avtomobillərin, məişət məmulatlarının və şəxsi istifadə əşyalarının təmiri üzrə xidmətlər sahələrində 2029,6 milyon manatlıq (5,3 faiz), rabitədə 708,7 milyon manatlıq (1,9 faiz), mehmanxana və restoranlarda xidmət sahələrində 283,1 milyon manatlıq (0,7 faiz), sosial və digər xidmətlər sahələində 3446,9 milyon manatlıq (9,1 faiz) əlavə dəyər yaranmışdır.

Məhsula və idxala xalis vergilər isə ÜDM-in 7,1 faizini təşkil etmişdir.

ÜDM-in istehsalında nəqliyyat xidmətlərinin həcmi küçən ilin müvafiq dövrünə nisbətən 13,5 faiz artmışdır.

**2008-ci ilin yanvar-dekabr aylarında ümumi daxili məhsulun strukturu**




Yanvar-dekabr aylarında ölkənin iqtisadi və sosial sahələrinin inkişafına bütün maliyyə mənbələrindən 9073,6 milyon manat məbləğində və ya əvvəlki ilin müvafiq dövrünə nisbətən 34,3 faiz çöx investisiya yönəldilmişdir.

Dövlət mülkiyyətinə məxsus müəssisə və təşkilatlar əsas kapitala 5677,4 milyon manat və ya ümumi investisiyanın 62,6 faizi, qeyri-dövlət müəssisələri 3396,9 milyon manat və ya 37,4 faizi qədər sərmayə qoymuşdur.

Əsas kapitala yönəldillmiş sərmayənin ümumi həcmində müəssisə və təşkilatların vəsaitləri 4075,9 milyon manat ( ümumi investisiyanın 44,9 faizi), bank kreditləri 349,1 milyon manat (3,8 faizi), büdcə vəsaitləri 3726,1 milyon manat (41,1 faizi), büdcədənkənar fondların vəsaitləri 626,7 milyon manat (6,9 faizi), əhalinin şəxsi vəsaitləri 291,1 milyon manat (3,2 faizi), digər vəsaitlər isə 4,7 milyon manat (0,1 faiz) təşkil etmişdir.

**Maliyyə mənbələri üzrə əsas kapitala yönəldilmiş investisiyanın strukturu**

Ümumi həcmdə xüsusi çəkisi, faizlə




2008 -ci ildə əsas kapitala yönəldilmiş bütün investisiyanın 44,3 faizi (4018,7 milyon manatı) sənaye sahələrinin inkişafına, 3,7 faizi (336,7 milyon manatı) kənd təsərrüfatına, 1,0 faizi (86,5 milyon manatı) ticarət və xidmətə, **20,7 faizi (1880,7 milyon manatı) nəqliyyata**, 1,8 faizi (161,4 milyon manatı) rabitəyə, 7,3 faizi (664,5 milyon manatı) mənzil tikintisinə, 3,1 faizi (282,0 milyon manatı) təhsilə, 2,8 faizi (256,0 milyon manatı) səhiyyəyə, 4,5 faizi digər sahələrə sərf edilmişdir.

Əsas kapitala yönəldilmiş ümumi investisiyanın 6268,6 milyon manatı (69,1 faizi) qeyri-neft bölməsinin, 2805.0 milyon manatı (30,9 faizi) neft sektorunun inkişafında istifadə edilmişdir.

2008-ci ilin yanvar-dekabr aylarında nəqliyyat sektorunda yük daşınması ötən ilin eyni dövrü ilə müqayisədə 9,2 faiz, yük dövriyyəsi isə 13.6 faiz artmış, son beş ildə bu göstəricinin artımı müvafiq olaraq 1,7 və 4,0 dəfə təşkil etmişdir. Nəqliyyat vasitələri ilə daşınmış 183,0 milyon ton yükün 48,1 faizi avtomobil, 30,4 faizi boru kəməri, (o cümlədən 17,9 faizi H.Əliyev adına BTC neft kəməri, 1,8 faizi Cənubi Qafqaz qaz kəməri ilə), 15,0 faizi dəmir yolu, 6,5 faizi dəniz nəqliyyatı vasitəsilə həyata keçirilmişdir.

Özəl bölmənin nəqliyyat vasitələri ilə yük daşınması 11,6 faiz artmış, bu bölmənin yük daşımasında payı 69,4 faiz təşkil etmişdir.

**2003-2008-ci illərdə yük daşınması və yük dövriyyəsinin Dinamikası**

| İllər | Yük daşınması, min ton | 2003-cü ilə nisbətən, faizlə | Yük dövriyyəsi, milyon ton-km | 2003-cü ilə nisbətən, faizlə |
|---|---|---|---|---|
| 2003 | 110 001 | 100.0 | 22 291 | 110.0 |
| 2004 | 117 314 | 106.6 | 23 283 | 104.5 |
| 2005 | 128 328 | 116.7 | 26 534 | 119.0 |
| 2006 | 145 596 | 132.4 | 43 294 | 194.2 |
| 2007 | 167 264 | 152.1 | 77 943 | 3.5d |
| 2008 | 183 021 | 166.4 | 88 586 | 4.0d |

Son 5 il ərzində bütün nəqliyyat növləri ilə yük daşınması orta hesabla hər il 10.7 faiz, o cümlədən avtomobil nəqliyyatında 8.3 faiz, dəmir yolu nəqliyyatında 6.1 faiz, boru kəməri nəqliyyatında isə 26.4 faiz çöxalmışdır.

**Nəqliyyat sektorunda yük daşınması üzrə ayrı-ayrı nəqliyyat növlərinin xüsusi çəkisi**




Nəqliyyat vasitələri ilə yanvar-dekabr aylarında 1,2 milyard nəfər daşınmış və əvvəlki ilin eyni dövrü ilə müqayisədə 8,2 faiz artmış, bundan 16.1 faizi metro nəqliyyatı ilə daşınmışdır. Bu

sahədəki fəaliyyətin 83,2 faiz qeyri-dövlət bölməsinin payına düşmüş, sərnişinlərin 83.2 faizi isə avtomobil nəqliyyat vasitəsilə daşənmışdır.

**Dəmir yolu nəqliyyatı** ilə 27,4 milyon ton yük daşınmış və 2007-ci ilin yanvar-dekabr ayları ilə müqayisədə 3,1 faiz azalmışdır. Dəmir yolunda orta hesabla sutka ərzində yüklənmiş vaqonların sayı 5,0 faiz azalmışdır, boşaldılmış yük vaqonlarının sayı isə 8,5 faiz artmışdır. Vaqonların orta sutkalıq yüklənməsi dəmir yolunun Şimal istiqaməti üzrə isə 8,8 faiz azalma ilə, Qərb istiqaməti üzrə 5,7 faiz, Cənub istiqaməti üzrə isə 9,8 faiz çoxalma ilə müşahidə olunmuşdur. Dəmir yolunda yük dövriyyəsi əvvəlki illə müqayisədə 3.6 faiz azalmışdır.

**Dəniz nəqliyyatında** daşınmış yüklərin həcmi 17,0 faiz artmış və 11,9 milyon ton təşkil etmişdir. Yüklərin 71,0 faizini neft yükləri, 29,0 faizini isə quru yüklər təşkil etmiş və bütün daşımalar xarici əlaqə üzrə həyata keçirilmişdir. Bu nəqliyyat növündə yük dövriyyəsi 1.5 faiz artmış və 6.1 milyard ton-km təşkil etmişdir.

İl ərzində **Bakı Beynəlxalq Dəniz Ticarət Limanında** 5,4 milyon ton və ya əvvəlki illə müqayisədə eyni səviyyədə yükləmə-boşaltma işləri yerinə yetirilmişdir.İşlənmiş yüklərin 84.7 faizi təşkil edən beynəlxalq tranzit yüklərin həcmi 2.1 faiz, idxal yüklərinin həcmi 19.5 faiz azalmış, ixrac yüklərinin həcmi isə 28.5 faiz artmışdır.

2008-ci ildə **avtomobil nəqliyyatı** ilə fiziki şəxslərin – fərdi sahibkarların fəaliyyəti də nəzərə alınmaqla 88,0 milyon ton yük, 1,0 milyard sərnişin daşınmış və əvvəlki illə müqayisədə müvafiq olaraq 7,8 və 7,2 faiz artmışdır. Sərnişinlərin 96,7 faizi avtobus, 3,3 faizi isə minik taksilərinin xidmətlərindən istifadə etmişlər. Avtomobil nəqliyyatı ilə yük və sərnişin dövriyyəsində artım 8,9 faiz səviyyəsində olmuşdur..

**Metro nəqliyyatının** xidmətindən istifadə edən sərnişinlərin sayı artmaqdadır. Hesabat ilində bu nəqliyyat növü ilə 200,4 milyon sərnişin və ya 14,1 faiz çox sərnişin daşınmışdır.

**Hava nəqliyyatı ilə** 1,4 milyon nəfər və ya əvvəlki ilin müvafiq dövrünə nisbətən 8,6 faiz az sərnişin daşınmışdır. Bu nəqliyyat növü ilə daşınmış sərnişinlərin 92,7 faizi dövlət bölməsinə, 7,3 faizi isə özəl müəssisələrə məxsus hava gəmiləri ilə həyata keçirilmişdir.

**Magistral neft kəmərləri vasitəsilə** 44,4 milyon ton neft nəql edilmişdir. Nəqletmənin dörddə üç hissəsi BTC neft ixrac kəməri ilə həyata keçirilmiş və ötən dövr ərzində Bakıdan 32.8 milyon ton və ya 15,3 faiz çox neft ötürülmüşdür. Ümumilikdə, magistral neft kəmərləri ilə nəql edilmiş neftin həcmi əvvəlki ilin yanvar-dekabr ayları ilə müqayisədə 11.0 faiz artmışdır.

**Magistral qaz kəmərləri** ilə 11,3 milyon ton və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 52,7 faiz çox qaz nəql edilmişdir. Nəql edilmiş qazın 29,0 faizi Bakı-Tbilisi-Ərzurum Cənubi Qafqaz boru kəməri vasitəsilə həyata keçirilmiş, bu kəmər vasitəsilə 4,7 milyard kubmetr qaz ötürülmüşdür. Magistral qaz kəmərləri üzrə yük dövriyyəsinin həcmi isə 2.6 dəfə artmışdır.

2008-ci ilin yanvar-noyabr aylarında **Avropa-Qfqaz-Asiya nəqliyyat dəhlizinin** Azərbaycan hissəsində 43,8 milyon ton və ya ötən ilin yanvar-noyabr ayları ilə müqayisədə 2,7 faiz çox yük, 175,4 milyon nəfər və ya 6,9 faiz çox sərnişin daşınmışdır. Yük daşınmasında dəmir yolu nəqliyyatı 54,7 faiz, avtomobil nəqliyyatı 31,3 faiz, dəniz nəqliyyatı 14,0 faiz paya malik olmuş, dəhlizdə bu nəqliyyat növləri ilə daşınmış yüklər ölkənin nəqliyyat sektorunda daşınmış bütün yüklərin 26.5 faizini təşkil etmişdir. Dəhlizdəki daşımalardan 239,9 milyon manat və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 12,5 faiz çox gəlir əldə edilmiş və artım dəmir yolu nəqliyyatında 11,1 faiz, dəniz nəqliyyatında 15,4 faiz və avtomobil nəqliyyatında 14,4 faiz səviyyəsində müşahidə olunmuşdur.

2008-ci ilin yanvar-noyabr aylarında nəqliyyat müəssisələrində muzdla çalışan işçilərin sayı əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 2.8 min nəfər artaraq 70.5 min nəfər təşkil etmişdir.Onların 83.4 faizi dövlət müəssisələrində çalışmışdır.İşçilərin orta aylıq əmək haqqı əvvəlki ilin on ayı ilə müqayisədə 33.3 faiz artaraq 304.1 manat olmuşdur.